**UOT 93**

***Eynulla Mədətli,***
***tarix elmləri doktoru***
***AMEA-nın Fəlsəfə və Sosiologiya***
***İnstitutunun icraçı direktoru,***
***emadatli@gmail.com***
***ORCID iD: 0000-0001-9315-9990***
https://doi.org/10.59849/2709-5096.2023.1.96

# AZƏRBAYCAN İRANIN QAFQAZ SİYASƏTİNDƏ (1918-1920)

***Annotasiya***

*Qacarlar dövləti Birinci Dünya müharibəsinə qoşulmasa da, belə hesab edirdi ki, İran bu müharibə nəticəsində çox zərər görmüş və itkilərə məruz qalmışdır. Eyni zamanda müharibədən sonrakı dünyada şəkillənən yeni diplomatik münasibətlər sistemində İran da yer almaq arzusunda idi. Buna görə XIX əsrdə üzləşdiyi ərazi itkiləri və itirdiyi təsir dairələri ilə razılaşmayan Qacarlar dövləti 1919-cu ilin yanvarında qalib dövlətlərin Versalda keçirilən konfransına qatılıb orada öz tələblərini irəli sürməyə qərarlı idi. Bu məqsədlə xarici işlər nazirinin başçılığı ilə Parisə nümayəndə heyəti göndərilmişdi. Lakin İngiltərə hökuməti İranın müharibədə bitərəf qaldığını və hərbi əməliyyatlarda iştirak etmədiyini əsas götürərək İran heyətinin konfransda iştirakına imkan vermədi. Belə olduqda İran heyəti öz istək və tələblərini yazılı şəkildə konfrans heyətlərinə çatdırmalı oldu. Tələblərdən biri bu idi ki, XIX əsrdə İrandan zorla qoparılmış vilayətlər İrana qaytarılsın. Bu əyalətlər aşağıdakılar hesab edilirdi: Mərv, Xivə, Türküstan və İran-Rus müharibələrində Rusiya tərəfindən zəbt edilmiş Qafqazın 17 şəhəri. Bir sözlə, bu tələblərdə İranın XIX əsrin əvvəllərindəki sərhədlərinin təmin edilməsi irəli sürülürdü. Deməli, İran 1918-ci ilin mayında Qafqazda meydana gələn respublikaları tanımaq fikrində deyildi. Lakin bu əsassız tələblərin nəzərə alınmaması İranın Qafqaz siyasətinin dəyişilməsinə səbəb oldu.*

*Qafqazda meydana gəlmiş müstəqil respublikalarla münasibətlər qurmaq və öz dövlət maraqlarını bu bölgədə təmin etmək məqsədilə Iran Qacarlar dövləti 1919-cu ilin noyabrında Azərbaycan Cümhuriyyətinə Seyid Ziyaəddin Təbatəbainin başçılığı ilə Fövqəladə Heyət göndərdi. Heyət Bakıda işlərini tamamladıqdan sonra digər Qafqaz ölkələrinə də səfər etməli idi. Heyətin Azərbaycan hökuməti ilə uzun müzakirələri 1920-ci il martın 20-də İran şahlıq dövləti ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında dostluq müqaviləsinin və ona əlavə sənədlərin imzalanması ilə nəticələndi. Lakin Sovet Rusiyasının Qafqaz respublikalarını işğal etməsi nəticəsində bu sənədlər öz təsdiqini tapmadı, İran isə Qafqazdakı iddialarından əl üzməli oldu.*

***Açar sözlər:*** *İran, Azərbaycan, Qafqaz, Versal konfransı, ərazi iddiası, dostluq müqaviləsi, sovet işğalı.*

**Eynulla Madatli**

# AZERBAIJAN IN THE CAUCASUS POLICY OF IRAN (1918-1920)

***Annotation***

*Although the Qajar state did not join the World War I, it believed that Iran had suffered a lot of damage and losses as a result of this war. At the same time, Iran also wanted to take part in the new system of diplomatic relations formed in the world after the war. Therefore, the state of Qajars, which did not agree with the territorial losses and lost spheres of influence it faced in the 19th century, was determined to participate in the Conference of the victorious states in Versailles in January 1919 and put forward its demands there. A delegation headed by the Minister of Foreign Affairs was sent to Paris for this purpose, but the British government did not allow the Iranian delegation to participate in the Conference on the grounds that Iran remained neutral in the war and did not participate in military operations. In this case, the Iranian delegation had to convey its wishes and demands to the Conference participants in a written form. One of the demands was that the provinces that were forcibly taken from Iran in the 19th century should be*

*returned to it. These provinces were considered to be: Merv, Khiva, Turkestan and 17 cities of the Caucasus captured by Russia in the Iran-Russian wars. In short, in these demands, the provision of the borders of Iran at the beginning of the 19th century was put forward. So, Iran was not going to recognize the Republics that were formed in the Caucasus in May 1918. However, ignoring these unreasonable demands led to a change in Caucasus policy of Iran.*

*In November 1919, the Iranian Qajar state sent an Extraordinary Delegation headed by Seyyed Ziyaeddin Tabatabai to the Republic of Azerbaijan in order to establish relations with the independent republics that emerged in the Caucasus and to secure its state interests in this region. After completing its work in Baku, the delegation had to visit other Caucasian countries. The delegation's long discussions with the government of Azerbaijan resulted in the signing of the Treaty of Friendship and additional documents between Iran and the government of the Republic of Azerbaijan on March 20, 1920. However, as a result of Soviet Russia's occupation of the Caucasian republics, these documents were not confirmed, and Iran had to withdraw from its claims in the Caucasus.*

***Keywords:*** *Iran, Azerbaijan, Caucasus, the conference of Versailles, territorial claim, Treaty of Friendship, Soviet occupation.*

***Giriş***

Ölkəmizin dövlətçilik tarixində müstəsna yer tutan Azərbaycan Xalq Cümhuriyyətinə, eləcə də 1918-1920-ci illərdə Qafqazda bərqərar olmuş müstəqil Gürcüstan, Dağlılar Respublikası və Ermənistana münasibətdə İran Qacarlar dövlətinin siyasətinin öyrənilməsi, həm elmi, həm də siyasi baxımdan zəruridir. Bu münasibətlər Azərbaycan Respublikası 1991-ci ilin oktyabrın 18-də öz dövlət müstəqilliyinin bərpa edilməsini bəyan edəndən sonrakı vəziyyətlə bənzərlik təşkil edir. İlk Cümhuriyyət dönəmində olduğu kimi, qonşu İran İslam Respublikası Azərbaycanın dövlət müstəqilliyini tanımağa tələsmirdi. Hətta Qafqazda "İranın haqqları" sevdasına düşənlər də var idi. Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini Ziyad Səmədzadənin İrana səfərindən sonra, dekabrın 25-də İranın xarici işlər naziri Əli Əkbər Vilayəti Azərbaycana səfər etdi və həmin gün İran Azərbaycanın dövlət müstəqilliyini tanıdğını bildirdi. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il martın 12-də quruldu. Beləliklə, İran Azərbaycan Respublikasını tanıyan 11-ci, diplomatik əlaqələr quran 19-cu ölkə oldu. [1, s.566-567]

Xüsusilə də, Azərbaycan xalqının otuz illik erməni işğalına qarşı 27 sentyabr 2020-ci il tarixində başlanan və 44 gündən sonra, 9 noyabrda Zəfərlə başa çatan Vətən müharibəsindən sonra qonşu İran İslam Respublikasının ölkəmizə qarşı yeritdiyi anti-Azərbaycan ermənipərəst siyasəti, Azərbaycan dövlətinin suverenliyinə təhdidləri fonunda bu mövzuya yenidən müraciət edilməsi heç də əsassız deyildir.

***Qacarlar dövlətinin xarici siyasətinə qısa baxış***

Məlum olduğu kimi, İranda *(bu ölkə dünyada "Persiya" adı ilə tanınırdı, yalnız ölkədə və qonşuluqdakı xalqlar buranı İran adlandırırdılar, 1935-ci ilin martında Rza şahın fərmanı ilə bundan sonra İran adlandırılması üçün bütün xarici dövlətlərə müvafiq nota göndərildi və ölkənin adı beynəlxalq aləmdə "İran" olaraq rəsmiləşdirilmiş oldu – E.M.)* 1925-ci elədək, təqribən min il davam edən türk sülalələrinin hakimiyyəti zamanı dövlətin xarici siyasəti birbaşa hökmdarlar tərəfindən yönləndirilmiş, sülh və ticarət barəsində müqavilələr imzalanmış, xarici ölkələrə səfirlər göndərilmiş, sarayda da əsrlər boyu xarici səfirlər qəbul olunmuş və ölkələrini təmsil etmişlər. Lakin xarici əlaqələrin digər dövlətlərin də qəbul etdiyi norma və prinsiplər əsasında qurulub idarə edilməsi bu ölkəni 1797-ci ildən idarə edən türk Qacarlar sülaləsi tərəfindən həyata keçirilməyə başlanmışdı. Əlbəttə, XIX əsr Qacarlar dövləti üçün heç də dinc və rifahlı keçməmişdir. Ağa Məhəmməd şah Qacardan sonra baş verən müharibələr və xarici güclərin vaxtaşırı iqtisadi, siyasi təzyiqləri ilə həmahəng ölkənin naqis idarəçiliyi Azərbaycanın bu şan-şöhrətli türk sülaləsinin tədricən nüfuzdan düşməsinə yol açmışdı. XX əsrin əvvəllərində isə İran demək olar ki,

yarımmüstəmləkə vəziyyətinə düşmüşdü. İmperialist dövlətlər bu ölkəni təsir dairələrinə bölüb aşkar müstəmləkəçilik siyasəti həyata keçirirdilər. Belə yarımcan vəziyyətində olsa da, Qacarlar dövləti bir vaxtlar Səfəvilər və Əfşarların tərkibində olmuş Qafqaz torpaqlarına sahib olmaq arzusunda idi.

Məhəmməd Əmin Rəsulzadə "Qafqaz xatirələri" tarixi-sənədli əsərində yazır: "*Qafqaz yüz illərdir böyük köçlərlə müxtəlif xalqların törətdikləri qanlı savaşlara meydan olmuşdur. Orta Asiyadan gələn köçərilər Qafqazdan keçirdi. Tarixin böyük sərkərdələri burada qarşılaşırdı. Şərqlə Qərbin müxtəlif mədəniyyətləri arasındakı rəqabət və qarşılıqlı çəkişmələr Qafqazda baş verirdi. Qədim Roma ilə qədim İran arasındakı ölüm-dirim savaşı da burada baş vermişdir. Xristianlıq və atəşpərəstlik burada yayılırdı. İslamiyyətlə xristianlıq da burada birləşirdi*". [2, s.112] Məlum olduğu kimi, Nadir şahdan sonra İranın Qafqazdakı mövqeyi və təsir imkanları olduqca məhdudlaşmışdı və Rusiyanın Cənubi Qafqaza, Xəzər bölgəsi və Türküstana doğru addım-addım irəliləməsi və bir-birinin ardınca öz işğalçı niyyətlərini reallaşdırması İranın nüfuz sərhədlərini get-gedə daraldırdı.

Bir sözlə, XIX əsrdə İranın yeni sərhədləri cızılırdı. Çünki böyük coğrafiyaya malik olmuş Səfəvilər imperiyasının sərhədləri get-gedə kiçilmişdi və Qacarlar qismən də olsa, bu sərhədləri bərpa etməyə, mövcud əraziləri isə qoruyub saxlamağa çalışırdılar. Ona görə ki, Qacarlar daxil, bütün türklər İranı türklərin ölkəsi, buradakı hakimiyyətləri türklərin hakimiyyəti kimi görürdülər, özlərini bu dövlətləri quran və idarəedənlər olaraq İranın sahibi sayırdılar. Ona görə də, xüsusilə də türklərin tarixi yurdlarının parçalanıb yad ölkələrin əlinə keçməsi Qacarlar dövlətini ciddi narahat edirdi. Qeyd edilməlidir ki, Səfəvilər dövlətinin yaranışında fəal rol oynayan Qacarlar da Səfəvilər kimi məhz Azərbaycan türkləri idi. Onlar əsasən Gəncə, Qarabağ, İrəvan, Mazandaran, Mərv vilayətlərində sakin idilər. Sülalə mənsubiyyəti olmasa da, Qacarlar sülaləsi Azərbaycanda qurulmuş Səfəvilər dövlətinin siyasi varisi idi və 1747-ci ildə Nadir şahın xaincəsinə qətlindən sonra ölkədə təqribən 50 il hökm sürən hərc-mərclikdən, yerlərdəki çoxhakimiyyətlilikdən sonra İranda güclü mərkəzi hakimiyyətin bərpa edilməsi və Səfəvi dövlətinin sərhədlərinin qismən bərpa edilib qorunması onların xidmətidir. Bu dövlətin qurucusu Mazandaran qacarlarından olan Ağa Məhəmməd xan (hakimiyyət illəri: 1778-1797) 1786-cı ildə o zaman kiçik bir şəhər olan Tehranı ölkənin paytaxtı edərək keçmiş sərhədləri bərpa etmək üçün həm siyasi, həm də hərbi vasitələrlə, xüsusən də Osmanlı dövləti, İngiltərə, Fransa ilə müqavilələr bağlayaraq dövlətin mövqeyini möhkəmləndirməyə çalışırdı. [3, s.27-66] XIX əsrin əvvəlindən etibarən Rusiya imperiyasının Qafqazı işğal etmək məqsədilə cənuba doğru irəliləməsi İranın həm vaxtilə təsir dairəsinə aid olan, 1747-ci ildə Nadir şahın qətlindən sonra əsasən müstəqil siyasət yeridən Azərbaycan xanlıqlarını və Qafqazın digər bölgələrini yenidən Qacarlar dövlətinə qatmaq cəhdlərini təhlükədə qoyurdu. Gürcüstanın və bəzi Azərbaycan xanlıqlarının işğala Rusiya imperiyasına meyl göstərməsi də Qacarları ciddi narahat edirdi. Lakin, ruslara qarşı Qərbdə müttəfiq axtarışları, İngiltərə və Fransa ilə imzalanmış saziş və müqavilələr də Qacarlar dövlətinin Qərbdən asılılığını artırırdı. XIX əsrin əvvəllərində Rusiya-İran müharibələri qaçılmaz olmuşdu və 1813-cü ildə imzalanmış Gülüstan müqaviləsinə əsasən Qacarlar dövləti İmeretiya, Quriya, Minqreliya, Abxaziya, Dağıstan əraziləri, Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və qismən Talış bölgələrinin Rusiyaya ilhaqına razılıq verməli oldu. [4, s.576]

Ancaq varis şahzadə Abbas Mirzə Azərbaycan torpaqlarının itirilməsi ilə barışmaq niyyətində deyildi. Məlum olduğu kimi, onun bu sahədəki diplomatik və hərbi cəhdləri də əvvəl-əvvəl müəyyən uğurlarlara gətirsə də, nəticə vermədi. Qeyd etmək lazımdır ki, bu qeyri-bərabər savaş əslində Rusiya ilə Azərbaycan arasında gedirdi və müharibənin bütün ağırlığı və məsuliyyəti Azərbaycanın üzərinə düşmüşdü. Fətəli şah dövlətin maliyyə və hərbi resurslarını bu müharibə üçün səfərbər etməmişdi və mümkün olan köməkliyi də göstərmirdi. Bu səbəbdən 1828-ci ildə Rusiya ilə ikinci müharibə də Qacarların məğlubiyyəti və Azərbaycanın Naxçıvan və İrəvan xanlıqlarının da Rusiya tərəfindən işğalı ilə nəticələndi. Üstəlik İran Rusiyaya gümüşlə 20 mln.rubl ödəməyi boynuna götürdü və Xəzər dənizində də hərbi donanma saxlamaq hüququndan məhrum oldu. [5, s.581-597]

 ISSN 2709-5096

Bu illər ərzində İranın gah Britaniya, gah da Fransa ilə daha çox həmin ölkələrin mənafeyinə uyğun olan müqavilələr imzalamasına baxmayaraq, Rusiya imperiyası hələ I Pyotrun zamanında işğal edilməsi nəzərdə tutulmuş bir çox əraziləri əldə etməyə nail oldu. Fətəli şahdan (1771-1834) sonrakı Qacar hökmdarları olan Məhəmməd şah Qacar (1834-1848), Nəsirəddin şah (1848-1896), Müzəffərəddin şah (1896-1906), Məhəmməd Əli şah (1906-1909) zamanında da İranın Rusiya ilə formalaşan yeni sərhəddində hansısa dəyişiklik baş vermədi. Lakin ərazi itirməsə də, XIX əsrin sonları – XX əsrin 20-ci illərin əvvəllərinədək İran İngiltərə və Rusiyanın bir növü yarımmüstəmləkəsinə çevrilmiş oldu. [6, s.42]

Qeyd edilməlidir ki, İranda bütün türk sülalələri dövründə - Səlcuqlardan başlamış Fətəli şah Qacaradək xarici siyasətlə birbaşa hökmdarlar məşğul olurdu və bu sahəyə dair xüsusi bir qurum yaradılmamışdı. Bu istiqamətdə ilk addımlar 1807-ci ildə Fətəli Şahın sarayda Rzaqulu xanı (Münşi-əl-məmalik) xarici ölkə başçılarının məktublarını qəbul edərək onu şahın hüzurunda oxumağa və cavab hazırlamağa, xarici nümayəndələri qəbul edib-dinləməyə məsul olan şəxs olaraq təyin etməsilə başlamışdı. 1815-ci il martın 15-də Vyana konqresində siyasi nümayəndələrin təşkili, ezamı, qəbul edilməsi, təqdimini tənzimləyən sənədin qəbul edilməsindən sonra xarici işlərə baxan məxsusi qurumun təşkilinə Qacarlar dövlətində də ehtiyac yaranırdı. Nəhayət, 1821-ci ilin oktyabrında Fətəli şah Xarici İşlər Nazirliyin yaradılmasına dair fərman verdi. Tanınmış alim və şair Əbdülvahab xan Nişat İsfahani ölkənin ilk xarici işlər naziri vəzifəsinə təyin edildi. [7, s.241]

O zaman səfirlər hələ də bir qayda olaraq keçmiş paytaxt və vəliəhd şəhəri olan Təbrizdə otururdular və şahzadə Abbas Mirzə ilə bütün məsələləri həll edirdilər. Qacarlar dövlətinin xarici ölkələrə təyin etdiyi səfirlər də əsasən Azərbaycan türklərindən olurdu.

1848-1851-ci illərdə Mirzə Tağı xanın (Əmir Kəbir) hökumətə rəhbərlik etdiyi zaman Xarici İşlər Nazirliyi daha da təkmilləşdirildi, daimi səfirliklər açılmağa başlandı (İstanbulda, Sankt-Peterburqda və Londonda ilk olaraq), yazışmalar, arayışlar və s. nizama salındı. Nazirlik Sədrəzəmin (Baş nazirin) idarəsinə bağlı olsa da, nazir şahdan tapşırıq alırdı. [7, s.242] O zamandan da İranın maraqlarını təmin etmək üçün xaricdə fəal işlər aparılmağa başlandı. Əsas vəzifələrdən biri ilk fürsətdə İranın ərazi iddialarının təmin edilməsi sahəsində çalışmaqdan ibarət idi.

### *Birinci Dünya müharibəsi və İran*

I Dünya müharibəsinin ilk illərində İranda, xüsusən cənubda, Şirazda, eləcə də Tehranda almanlar, şimal-qərbdə Osmanlılar, əslində güclü təsir gücünə malik idilər. Amma çox keçmədən Şirazi ələ keçirən almanlar, ingilislər tərəfindən sıxışdırılıb çıxarıldılar. 1915-ci ildə Kermanşahı, Həmədanı tutan Osmanlı qoşunları da, ruslar tərəfindən sıxışdırılıb geri çəkilməyə məcbur edildilər, həmin şəhərlər rusların nəzarətinə keçdi. Beləliklə, 1916-cı ilin əvvəllərində İranın cənub, cənub-şərq əyalətləri ingilis generalı Persi Sayks tərəfindən işğal olunmuş, mərkəz də daxil ingilislərin təsir zonasına çevrilmişdi.Şimal və şimal-qərb bölgələri isə Rusiyanın işğal zonası idi. 1917-ci ildə Rusiyada fevral inqilabı ilə baş verən dəyişikliklər təbii olaraq Qacarlar dövlətinin bölgədəki xarici siyasətini fəallaşdırdı. 1917-ci ilin əvvəllərində İranın bütün şimal və şimal-qərbi rusların, mərkəz və cənub ingilislərin işğal zonasına çevrilmişdi. Şahin və hökümətin hakimiyyəti daha çox kağız üzərində idi, belə ki, ölkəni felən rus-ingilis səfirləri və generalları idarə edirdi. [19, s.258-259] Amma fevral inqilabından sonra Rusiyanın hərbçilərinin, diplomatlarının öz xidmətlərini İranda davam etdirilmələrinə baxmayaraq, hər yanda ingilislərin təsiri artmağa başladı. Oktyabr çevrilişindən sonra isə dekabrda rus qoşunlarının İrandan çıxarılacağı elan edildi və qısa vaxtda bu yerinə yetirildi. Rusların yerini də dərhal ingilis generalı Lionel Denstervil və general Vilfrid Mallesonun komandanlığı altında qoşunlar tutdular. 1918-ci ilin avqustunda ingilislər Bakını da işğal etdilər. İran isə artıq ingilislərin tam nəzarətində idi. Həmin ilin avqustunda burada ingilispərəst Vüsuqüd-dövlə hökümət kabineti təşkil etmişdi. Rus ağqvardiya zabitləri və kazakları ingilislər əvəz etmişdi. İngiltərə tələb edirdi ki, yeni Rusiyanın da diplomatları və hərbi nümayəndələri İrana buraxılmasın. Vüsuqüd-dövlə höküməti bir qədər əvvəl,

iyul ayında ölkəyə gəlmiş birinci sovet diplomatik nümayəndəsi Kolomiyçevi rəsmən tanımaqdan imtina etmişdi. Amma Sovet hökuməti nəyin bahasına olursa-olsun İranda öz yerini möhkəmləndirmək niyyətində idi və bu sahədə iş aparılırdı.

Birinci Dünya müharibəsi davam edirdi. Qacarlar dövləti Birinci Dünya müharibəsinə qoşulmasa da, belə hesab edilirdi ki, İran bu müharibə nəticəsində çox zərər görmüş və itkilərə məruz qalmışdır. Eyni zamanda müharibədən sonrakı dünyada qurulacaq yeni diplomatik münasibətlər sistemində İran da yer almaq arzusunda idi.

Qeyd edilməlidir ki, 28 may 1918-ci il tarixində Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin elan edilməsi xarici dövlətlər içərisində ilk növbədə Sovet Rusiyası və İran tərəfindən ciddi etirazla qarşılandı. İranın rəsmi dairələri ölkənin şimal sərhədlərində yaradılmış yeni dövlətin Azərbaycan adlandırılmasına xüsusi qısqanclıqla yanaşaraq əndişələnirdi ki, Azərbaycan Cümhuriyyəti Osmanlı Türkiyəsinin dəstəyi ilə Cənubi Azərbaycana ərazi iddiası irəli sürə bilər. 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında Dostluq müqaviləsinin imzalanması bu narahatlığı daha da artırırdı. Bu müqavilə ilə Azərbaycanın Osmanlı Türkiyəsi ilə geniş sərhəddi təsbit olunmaqla yanaşı, ehtiyac yarandıqda Osmanlı dövlətinin Azərbaycan Cümhuriyyətinə hərbi yardımı da nəzərdə tutulurdu. [8, s.383-385] Buna görə də İranın rəsmi dairələri müxtəlif rəsmi danışıqlarda Azərbaycan Cümhuriyyətini "Qafqaz Azərbaycanı" olaraq işlədirdilər. Rəsmi yazışmalarda və sənədlərdə "Azərbaycan Cümhuriyyəti (Qafqaz)" şəklində yazılırdı. [9, p.71]

1918-ci il sentyabrın əvvəllərində Azərbaycan Xarici İşlər Nazirliyinə İstanbuldan göndərdiyi teleqramda M.Ə.Rəsulzadə bildirirdi ki, "İstiqlal Bəyannaməsi"nin bir surətini İran konsulluğuna göndərdik. Konsulluq onları bir zərfə qoyub bizim kağızların haamısını geri qaytardı. İran konsulluğu ayrıca bir kağız yazıb bildirdi ki, onlar Azərbaycan adında bir dövlətin müstəqilliyini tanımırlar. Xarici İşlər Nazirliyindən mən öyrəndim ki, o, nota verib Azərbaycanın guya İranın ayrılmaz bir hissəsi olduğunu bildirmişdir, ona görə də bizim müstəqilliyimizin əleyhinə çıxış edir. [10, s.126] Konsulun sərgilədiyi münasibət əlbəttə, İran dövlətinin rəsmi mövqeyi idi. Bu həm İranın nəzərdə tutduğu ərazi iddialarının puç olması demək olurdu, həm də xeyli dərəcədə müstəqil Azərbaycan Cümhuriyyətinin Cənubi Azərbaycanda milli ideyanın inkişafına təsir göstərəcəyi qorxusu ilə əlaqədar idi.

### *Qacarlar dövlətinin Qafqazla əlaqədar Versal sülh konfransından gözləntiləri*

XIX əsrdə üzləşdiyi ərazi itkiləri və itirdiyi təsir dairələri ilə razılaşmayan Qacarlar dövləti 1919-cu ilin yanvarında qalib dövlətlərin Versalda keçirilən konfransına qatılıb orada öz tələblərini irəli sürməyə qərarlı idi. Bu məqsədlə xarici işlər naziri, müşavir-əl-məmalik Əliqulu xan Ənsari bir heyətlə Parisə yola salınmışdı. Səfərə Azərbaycan ərazisindən keçərkən İran heyəti Azərbaycan hökumətinin bəzi üzvləri, həmçinin Nəsib bəy Yusifbəyli və Əhməd bəy Ağayevlə görüşmüşdü. Görüşdə İran naziri Azərbaycana əsassız ərazi iddiası irəli sürmüş, Azərbaycanın tarixən İran şahlarının hakimiyyəti altında olduğunu vurğulamışdı. İran heyəti hələ İstanbulda ikən, yanvarın 9-da Azərbaycan heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov nazir Əliqulu Ənsari ilə danışıqlar aparmış, İran tərəfinin düşmənçilik mövqeyini xeyli yumşaltmağa nail olmuşdu**.** Yanvarın 11-də və 15-də Ə.Topçubaşov İranın xarici işlər naziri ilə görüşlər keçirmiş, nəticədə nazir Qafqaz respublikalarının, ilk növbədə isə Azərbaycanın İran tərəfindən tanınacağını və bu respublikaların İran üçün gələcək Rusiya ilə münasibətlərdə müəyyən təminatlar verə biləcəyini söyləmişdi. [10, s.126-127]

Heyətdə ölkənin Ali Divanının rəisi, məşhur siyasətçi "Zəka-ül-mülk"adına layiq görülmüş Məhəmməd Əli Füruği (1877-1942) də təmsil olunmuşdu və iştirak etmək üçün Paris sülh konfransına dövlət tərəfindən müraciət edilmişdi. Lakin İngiltərə hökuməti (farsca Hökumət-e İngilistan – E.M.) İranın müharibədə bitərəf qaldığını və hərbi əməliyyatlarda iştirak etmədiyini əsas götürərək İran heyətinin konfransda iştirakına imkan vermirdi. Səbəb isə aydın idi. Böyük Britaniya İranda artıq illərlə formalaşdırdığı və böyük mənfəət gətirən imtiyazlarını digər Avropa ölkələri ilə bölüşməyi əsla istəmir, bu ölkənin imkan qədər daha çox hissəsinə, xüsusilə də neftlə

zəngin bölgələrə şəriksiz hakim olmaq istəyirdi. Hətta ABŞ dövlət katibi Georg Lansingin İran heyətinə hüsn-rəğbətinə baxmayaraq, İngiltərənin təkidi İran heyətinin konfransda iştirakına yol verilmədi. Eyni zamanda, İran heyəti ilə yüksək səviyyəli görüşlər keçirməklə ikitərəfli əlaqələri daha da dərinləşdirmək siyasəti aparılırdı. Belə olduqda, İran heyəti öz istək və tələblərini yazılı şəkildə konfrans heyətlərinə çatdırmalı oldu. Bu tələblər üç qrupa bolünmüşdü: siyasi, iqtisadi və hüquqi. Siyasi tələblərdən biri bu idi ki, 1907-ci ildə bağlanmış və İranın mənafeyinə uyğun olmayan İngiltərə-Persiya müqaviləsi rəsmi surətdə və dərhal ləğv edilsin. XIX əsrdə İrandan zorla qoparılmış vilayətlər İrana qaytarılsın. Bu əyalətlər aşağıdakılar hesab edilirdi: Mərv, Xivə, Türküstan və İran-Rus müharibələrində Rusiya tərəfindən zəbt edilmiş Qafqazın 17 şəhəri. Bir sözlə, bu tələblərdə İranın XIX əsrin əvvəllərindəki sərhədlərinin təmin edilməsi irəli sürülürdü. Qalib dövlətlərdən xahiş olunurdu ki, "əzəldən İran torpağı olan Mosul, Kürdüstan və Diyarbəkir İrana qaytarılsın və Fərat çayı İranın qərb sərhədi olsun". Bundan başqa İran dövləti Birinci Dünya müharibəsi zamanı döyüşən tərəflərin qoşunlarının İranda olarkən ölkəyə vurduğu ziyan və əhalinin hüquqlarının pozulması ilə əlaqədar həmin ölkələrin təzminat verməsi istənilirdi. [7, s.359]

Qeyd etmək lazımdır ki, İngiltərənin qəti etirazından və bu tələblərin qəbul edilməzliyinə dair birmənalı mövqeyindən sonra Versal sülh konfransında İranın tələbləri gündəliyə çıxarılmadı və müzakirə mövzusu olmadı. İran nümayəndə heyəti müxtəlif nümayəndə heyətləri ilə, o cümlədən Azərbaycan Cümhuriyyəti heyəti ilə görüşlər keçirməklə kifayətlənməli oldu. Azərbaycan heyəti ilə görüşlərdə bir sıra məsələlər sırasında iki ölkənin konfederasiya qurmaq ideyası da meydana çıxdı.

İran heyətinin Böyük Britaniyanın xarici işlər naziri Lord Corc Kerzonla görüşündə yəqinlik hasil oldu ki, Britaniya hökuməti İranın konfransda iştirakına yol vermək niyyətində deyil, amma ikitərəfli qaydada münasibətləri qorumaq və inkişaf etdirməyi planlayırdı. Belə ki, məhz həmin günlərdə Tehranda Həsən Vüsuq-üd-dövlə hökuməti ilə gizli danışıqlar aparılırdı. Britaniyanın niyyəti İranla yeni müqavilə bağlayıb orada öz mövqeyini daha da möhkəmləndirmək, gözlənilən yeni rus təsirindən geosiyasi maraqlarını qorumaq, xüsusən müstəmləkələrini əldən verməmək idi. Reallıqda belə vəziyyət yaranmışdı ki, Birinci Dünya müharibəsinin qalib imperiyası kimi Böyük Britaniya artıq Qafqazda da, Türküstanda da, İranda da öz siyasi-hərbi varlığını daha da gücləndirmişdi.

***Qacarlar dövləti və Azərbaycan Cümhuriyyəti ilə əlaqələr***

1918-1920-ci illərdə İranın Qafqaz siyasətini, xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti ilə münasibətləri 2000-ci ildən Tehranda İran Xarici İşlər Nazirliyinin Sənədlər və diplomatiya tarixi Mərkəzinin arxiv materialları əsasında nəşr edilən "Heyət-e Fövqəladeye Qəfqaziyye" (Qafqaz Fövqəladə heyəti) adlı sənədlər toplusunun materiallarında geniş əks olunmuşdur. Rza Azəri Şəhrizayi tərəfindən hazırlanmış bu kitabda 1919-1920-ci illərdə İran dövlət nümayəndə heyətinin Azərbaycanda fəaliyyəti, keçirdiyi görüşlər və müzakirələr, imzalanan sənədlər, eyni zamanda Azərbaycan Cümhuriyyətinin ictimai, siyasi, iqtisadi, mədəni həyatı, daxili və xarici siyasəti və sair məsələlər haqqında hesabatlar, məlumatlar, həmin heyətlə İran hökuməti, Xarici İşlər Nazirliyi arasındakı yazışmalar, bütövlükdə 98 sənəd yer almışdır. Bunlardan yalnız bir sənəd Ermənistan və Gürcüstan respublikaları ilə əlaqədardır. Burada İran Nazirlər Şurasının Sədri Vüsuqud-dövlənin Gürcüstanın istiqlalı münasibətilə Gürcüstan Nazirlər Şurasının sədrinə təbrikindən və Seyid Ziyaəddinin təklifi əsasında Gürcüstanda zəlzələdən zərər çəkənlərə İranın 50 min pud düyü tədarük edilməsindən bəhs edilir. Seyid Ziyaəddinin bu məktubunda Ermənistan dövlət nümayəndə heyətinin Tehrana səfər edəcəyi haqqında məlumat və onların qarşılanması ilə əlaqədar təşrifat işlərinə dair tövsiyə vardır". [11, s.201-211]

1919-cu ilin oktyabrında Parisdə Azərbaycan nümayəndə heyəti Hindistan müsəlmanlarının və eyni zamanda ismaililərin başçısı, 1986-cı ildən fəaliyyət göstərən Mərkəzi Müsəlman Cəmiyyətinin (MMC) liderlərindən olan Ağa Xanla görüşdü. Heyətin rəhbəri Əlimərdan bəy Topçubaşov Azərbaycanın istiqlaliyyəti haqqında Ağa Xana həm məlumat verdi və Azərbaycan

Cümhuriyyətinin Paris sülh konfransından tələblərini ona təqdim edərək bu sahədə kömək göstərilməsini xahiş etdi. O zaman beynəlxalq siyasi aləmdə xüsusilə də Londonda böyük nüfuza malik olan Ağa Xan Azərbaycanın tələblərini Böyük Britaniyanın Baş naziri Lloyd Corca yetirəcəyinə söz verdi. Ağa Xan Londona döndükdən sonra Mərkəzi Müsəlman Cəmiyyəti Azərbaycan nümayəndə heyətinə təbrik məktubu göndərdi. Təbrikdə qardaş Azərbaycan xalqına və heyətə uğurlar arzu edilirdi. Oktyabrın 25-də MMC Baş katibi Mirzə Haşim Parisə gəldi və Azərbaycan, İran və Hindistan nümayəndələrinin birgə iclası keçirildi. İran heyətinin yeni başçısı, xarici işlər naziri Firuz Mirzə də (Nüsrət-üd-dövlə) Azərbaycan heyətinin tələblərinə dəstək verəcəklərini və Böyük Britaniyanın xarici işlər naziri ilə bu sahədə danışacağını bildirdi. Bakıda İran vətəndaşlarının çoxluğu, onların üzləşdiyi müxtəlif problemlərin həll edilməsi də İran-Azərbaycan münasibətlərinin qurulmasını və yaxşılaşdırılmasını zəruri edirdi. O zaman Azərbaycanda 100 minədək İran təbbəsi yaşayırdı ki, onların da əksər hissəsi Bakının neft mədənlərində işləyirdilər. İran konsulu Məhəmməd Səidül-vüzaranın məlumatına görə Bakıda 70 min iranlı fəhlə çalışırmış. [12, s.95]

Qeyd edilməlidir ki, İranın Azərbaycan Cümhuriyyətini tanımasının zəruriliyi fikri bu ölkənin Bakıdakı konsulu Məhəmməd Səidül-vüzəranın, Tiflisdəki Baş Konsulu Müəzzəd-dövlənin öz hökumətlərinə hesabatlarında da əsaslandırılırdı. Tiflisdəki Baş Konsul İran XİN-ə yazırdı ki, İran öz milli mənafeyi naminə Qafqazın yeni Cümhuriyyətləri ilə əlaqə qurmalıdır. [13, s.46]

Qeyd edilməlidir ki, İranın İngiltərə ilə saziş imzalayacağı ümid yaradırdı ki, Azərbaycan Cümhuriyyəti heyəti Azərbaycanın istiqlalının tanıdılması məqsədilə aparılan işlərdə İran-Britaniya münasibətlərindən faydalana bilər. Bundan sonra İranın Azərbaycan Cümhuriyyətinə münasibəti xeyli dəyişdi və Bakıya xüsusi heyət göndərilməsi gündəmə gəldi.

Gizli şəraitdə aparılan İngilis-İran müzakirələri 9 avqust 1919-cu ildə (1337 h.q.) İranın Baş naziri Mirzə Həsən xan Vüsuqüd-dövlə və Böyük Britaniyanın İrandakı səfiri Ser Persi Koks arasında müqavilə imzalanması ilə nəticələndi. Müqavilənin birinci maddəsində qeyd olunurdu ki, İngiltərə dövləti (farsca mətndə İngilistan dövləti – E.M.) əvvəllər də dəfələrlə ifadə etdiyi kimi, İranın istiqlalına və bütövlüyünə qəti ehtiramını bəyan edir. Qeyd edilməlidir ki, 6 maddəlik bu gizli müqavilənin əslinin İranın heç bir aid dövlət qurumunda mövcud olmadığını görkəmli tarixçi Hüseyn Məkki xüsusilə vurğulamışdır. [14, s.235] Bu müqaviləyə görə, İranın hərbi və maliyyə işləri Böyük Britaniyanın müşavirlərinin rəhbərliyi ilə icra ediləcək, İrana müharibədə gördüyü zərərin müqabilində bu ölkəyə maliyyə yardımları göstəriləcək, dəmir yolu çəkilişində və sair işlərdə İrana dəstək veriləcəkdi. Hətta müqavilənin Parlamentdə (Məclis) təsdiqini gözləmədən Britaniya hökuməti Vüsuqüd-dövlə hökumətinə 7 faizlə 2 milyon lirə vəsait ayırdı və general Edvard Diksonun rəhbərliyində İrana bir hərbi heyət göndərdi. Həmçinin Sidney Armitacın başçılığı ilə maliyyə heyəti də İrana yola salındı. [7, s.360]

Əlbəttə, bu gizli müqavilə barədə xəbər üzə çıxan kimi İranda kəskin etiraz hərəkatları başladı. ABŞ və Fransa da müttəfiqləri Böyük Britaniyanın bu siyasətindən öz ciddi narazılıqlarını gizlətmədilər və bunu bəyan edərək fəal şəkildə öz maraqlarını yeritməyə başladılar.

Qeyd etmək lazımdır ki, İran-İngiltərə müqaviləsi ölkədə həm Milli Şura Məclisi, həm xalq, həm də Əhməd şah tərəfindən bəyənilməmişdi, ölkədə kəskin etiraza səbəb olmuşdu. Əhməd şah Avropa səfərindən qayıdanda Tehranın Qəzvin darvazasında xalqın hökumətə qarşı qəzəbli etiraz nümayişi ilə üzləşdi. Etirazçıların bir şuarı var idi:

"*Morde bad gərardad, morde bad əğdeyn, morde bad Vüsuqüd-dövlə" (Ölüm olsun müqaviləyə, ölüm olsun imzalayanlara, ölüm olsun Vüsuqüd-dövləyə).* [15, s.120]

Bundan sonra Əhməd şah Vüsuqüd-dövlə hökumət kabinəsini buraxdı və bununla İngiltərə ilə imzalanan müqavilənin də Məclis tərəfindən ratifikasiya edilməsinə ehtiyac qalmadı. Beləliklə İngilis-Persiya razılaşması birdəfəlik öldü. [16, p.407]

Qeyd edilməlidir ki, 1917-ci ildə oktyabr çevrilişindən sonra bolşeviklərin hiyləgərcəsinə çarlıq Rusiyasının bütün dövlətlərlə bağladıqları müqavilələrin qüvvədən salınıb ləğv edildiyini elan etməsi İranın müəyyən dairələrində vaxtilə Səfəvilərə və Qacarlara məxsus olmuş şəhər və

vilayətlərin İrana qaytarıla biləcəyinə hansısa ümid yaratmışdı... Lakin bu ümidlər 1919-cu ilin ortalarında tam itirildiyi üçün İran Qafqazda təşəkkül edən yeni ölkələrlə siyasi-iqtisadi, humanitar əlaqələr yaradıb onları öz çevrəsində tutmaq məqsədilə hərəkətlərə keçdi.

Məlum olduğu kimi, o zaman Azərbaycanın və digər Qafqaz ölkələrinin istiqlalını tanımaq istəməyən Sovet Rusiyası təsir dairəsində olan dövlətlərin də bu yeni cümhuriyyətləri tanımasını əngəlləmək istəyirdi. Rusiyanın İrandakı müvəqqəti işlər vəkili İranın Qafqazda rəsmi heyət göndərmək və həmin cümhuriyyətlərlə əlaqələr qurmaq niyyəti barəsində xəbər tutan kimi İran Xarici İşlər Nazirliyinə etiraz notası göndərmişdi. [13, s.71-72]

Bununla əlaqədar Rusiya diplomatına İran Xarici İşlər Nazirliyində izahat verilmişdi ki, İran yalnız ticarət maneələrini aradan qaldırmaq və iranlıların mənafelərini qorumaq məqsədilə Qafqaza heyət göndərməyi qərara almışdır və bu heyətin göndərilməsi İranla Rusiyanın dostluq əlaqələrinə bir xələl gətirmir. Həm də İran Qafqaz cümhuriyyətlərini rəsmən tanımamışdır. Rusiyanın müvəqqəti işlər vəkili arzu edildiyini bildirmişdi ki, həmin yeni təsis olunmuş dövlətlərin nümayəndə heyətləri Tehrana səfər edəndə hökumət tərəfindən rəsmi surətdə qarşılanmasınlar və onlarla bir ticarət nümayəndə heyəti kimi rəftar edilsin. [13, s.96]

### *İranın Fövqəladə Qafqaz Heyəti və Azərbaycana münasibətdə yeni mövqe*

1919-cu ildə Parisdə Azərbaycan və İran nümayəndə heyətlərinin görüşmələrinə dair sənədlərdə, həmçinin Qafqaz heyətinin Tehrana göndərdiyi məlumatlardan məlum olduğu kimi, İranın əvvəlcə Azərbaycan Cümhüriyyəti ilə bir konfederasiya qurmaq niyyəti varmış və İranın Paris sülh konfransındakı nümayəndə heyətinin rəhbəri, xarici işlər naziri Nüsrətüd-dövlə Firuz Azərbaycan Cümhuriyyətinin nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşovla bu barədə danışıqlar aparmış imiş. İranın xarici işlər naziri Parisdən teleqrafla Tehrana bildirmişdi ki, həmin məsələ ilə əlaqədar Azərbaycan Cümhuriyyətinin nümayəndəsi və Böyük Britaniyanın xarici işlər naziri Lord Kerzonla müfəssəl və faydalı danışıqlar aparmışdır. Nazir təklif edirdi ki, müzakirələrin nəticəsi əldə ediləndən sonra bir heyət hazırlanıb Azərbaycana göndərilməlidir. [17]

Azərbaycana göndərilən Fövqəladə Heyət 1919-cu il noyabrın 27-də Bakıya gəlib çatdı və Azərbaycan Cümhuriyyətinin rəsmi şəxsləri tərəfindən qarşılandı. Bu heyət İranın Qafqaz siyasətinin həyata keçirilməsində əhəmiyyətli rol oynamalı idi. Heyətin Bakıya yola düşməsindən on gün əvvəl 17 noyabr 1919-cu ildə İranın xarici işlər naziri Firuz Nüsrətüddövlə Lord Kerzona yazmışdı:

“*Dünyanın indiki ictimai-siyasi vəziyyətinə görə, İran və Britaniya arasındakı yaxşı münasibətləri və siyasi mənafe birliyini nəzərə almaqla, ciddi olaraq bu əqidədəyik ki, Britaniyanın Qafqazda, xüsusilə sərvətli və hasilatlı Badkubə (Bakı – E.M.) məntəqəsində mənim ölkəmin mənafe və maraqlarını... nəzərə alması lazımdır*”. [13, s.14]

Qeyd edilməlidir ki, Azərbaycan Cümhuriyyəti hökuməti İranın Azərbaycanın müstəqilliyini tanımasını və qarşılıqlı əlaqələrin qurulmasını təmin etmək məqsədilə hələ 1919-cu ilin martında xarici işlər nazirinin müavini İsmayıl xan Ziyadxanovun başçılığı ilə fövqəladə diplomatik missiya göndərməyi qərara almışdı. İsmayıl xanın səfəri zamanı Tehranda İran XİN-in Rusiya üzrə idarə rəisi Seyid Hadi Fərəxlə iki ölkə arasında diplomatik əlaqələrin qurulması, səfirlik və konsulluqların açılması və digər əməkdaşlıq sahələrinə dair ilkin müzakirələr aparılmış, bir sıra sənədlərin layihəsi hazırlanmışdı. [12, s.54] Həmin ilin iyul ayının 16-da Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurası İranda diplomatik nümayəndəliyin təsis edilməsi haqqında qərar qəbul etmiş, 1919-cu il sentyabrın 23-də Adil xan Ziyadxanov Azərbaycan Cümhuriyyətinin səlahiyyətli səfiri kimi İrana göndərilmişdi. Tehranda Azərbaycan səfiri İran hökumətinin başçısı və şahənşah tərəfindən iltifatla qəbul edilmiş, şah Tehran, Təbriz və digər şəhərlərdə Azərbaycanın daimi nümayəndəliklərinin açılmasına razılıq vermişdi. Yerli azərbaycanlılar diplomatik heyətin gəlişi münasibətilə ziyafət vermişdilər. Atılan bu addımlar Azərbaycan Cümhuriyyəti ilə İran arasında qarşılıqlı anlaşmanın inkişafına öz təsririni göstərirdi. Bu müsbət irəliləyişdə 1919-cu ilin avqustunda Avropa ölkələrinə səfərində Əhməd şahın yolüstü Bakıda dayanması, Azərbaycan hökumətinin başçısı Nəsi bəy Yusifbəyli və Xarixi işlər naziri Fətəli xan Xoyski ilə görüşlərinin

də təsiri olmuş, Şah mehriban qonaqpərvərlik üçün Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdi. Bakıdan qatarla yola düşən İran şahını Adil xan Ziyadxanov Batuma qədər müşaiyət etmiş, yolda ikən İranın yeni xarici işlər naziri, şahı səfərdə müşaiyət edən Firuz Mirzə ilə də söhbət aparmışdı.

İranın Azərbaycana göndərdiyi Fövqəladə Qafqaz Heyətinin uzun sürən ezamiyyəsində əldə edilən əsas nəticə 1920-ci il martın 20-də iki ölkə arasında Dostluq müqaviləsi və qarşılıqlı əməkdaşlığı müxtəlif sahələrinə dair bir sıra mühüm sənədlərin imzalanması oldu. Qafqaz heyətinin fəaliyyətinə dair yuxarıda adı keçən sənədlər məcmuəsində, 68-ci sənəddə Dostluq müqaviləsinin tam mətni verilmişdir. Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri Fətəli xan Xoyskinin, ədliyyə naziri Xəlil bəy Xasməmmədovun, ticarət və sənaye naziri Məhəmməd Həsən Hacınskinin, yollar naziri Xudadad bəy Məlikaslanovun, poçt-teleqraf naziri Cəmo bəy Hacınskinin İranın Fövqəladə Qafqaz Heyətinin rəhbəri Seyid Ziyaəddin Təbatəbayi ilə imzaladığı Müqavilənin birinci maddəsi belədir:

"*İran Şahənşah dövləti rəsmən elan edir ki, Azərbaycan Cümhuriyyətinin (Qafqaz) istiqlalını tanıyır*". [13, s.181]

Göründüyü kimi, bu tanıma nə "de yure", nə də "de fakto" idi, sadəcə tanınmanın rəsmən elan edilməsi idi. Ona görə də, bəzi tədqiqatçıların İranın Azərbaycanın müstəqilliyini "de yure"tanıdığını dilə gətirməsi fikrimizcə doğru deyildir, çünki məqsədyönlü şəkildə "rəsmən" ifadəsi tanımağa deyil, tanımağın elan edilməsinə aid edilmişdir.

1919-cu ilin iyun ayının 26-da Sovet Rusiyasının Xalq Xarici İşlər Komissarlığının "Persiya xalqına və Persiya hökumətinə" başlıqlı notası göndərildi və burada Sovetlərin daha əvvəl elan etdikləri xarici siyasət prinsipləri bir daha vurğulanmaqla göstərildi ki, Sovet hökuməti İran hökumətinin maraqlarına zidd olan bütün əvvəlki müqavilə və razılaşmaları ləğv edir, İrandakı Rusiya mülkiyyətləri olan müəssisələr, o cümlədən bank, dəmir yolları, limanlar, teleqraf-poçt xətləri və tikililəri və s. xalqa verilir, İranın borcları silinir... Buna baxmayaraq, hökumət bu notanı xalqdan gizli saxladı, çünki ingilislərlə gizli müqavilə hazırlanırdı. [18, s.271]

Persiya-Britaniya gizli razılaşmasına xalqın təpkisi, ölkədə baş qaldıran milli demokratik hərəkat, xüsusilə 1920-ci ilin aprelində Cənubi Azərbaycanda başlayan Xiyabani hərəkatı, Təbrizdə qurulan Milli hökumət, Sovet Rusiyasının dəstəyi və iştirakı ilə Gilanda baş verən hadisələr, Azərbaycan Cümhuriyyətinin işğalı, bolşeviklərin Xəzərin İran sahillərindəndəki vilayətlərə hərbi müdaxiləsi sovet təsirini genişləndirdiyi kimi, İranda ingilislərin mövqeyini əhəmiyyətli dərəcədə aşağı saldı. Nəticədə, İran bu reallığı qəbul etməli oldu və 1920-ci ilin payızından Moskvada keçirilən İran-RSFSR müzakirələri, noyabrda Sovetlərin İrana səfir təyinatını, İranla Sovet Rusiyası arasında münasibətlərin artıq yeni məcraya düşməsini şərtləndirmiş oldu.

***Nəticə***

Sovet Rusiyasının bir-birinin ardınca Qafqaz respublikalarını işğal etməsi və Cənubi Qafqazda öz yerini möhkəmlətməsi İranı narahat etsə də, Qacarlar dövləti bu reallığı qəbul etməli oldu. Azərbaycan və Ermənistan respublikalarının istiqlalını iki il ərzində tanımaqdan imtina etmiş Rusiya 8 may 1920-ci il tarixində, yəni Azərbaycanın işğalından 10 gün sonra Gürcüstanın istiqlalını rəsmən tanıdı və onunla bir müqavilə bağladı. Tiflisdə Sovet Rusiyasının səfirliyi təsis edildi. Əlbəttə bu Gürcüstanı menşeviklərin əlindən qoparıb almaq üçün yerli inqilabi qüvvələrə dəstək verə bilmək məqsədilə edilmiş manevr idi. [19, s.40-41] Çox keçmədən Ermənistan və Gürcüstan da Azərbaycanın acı taleyini yaşadılar. Rusiyanın Türkiyə ilə 16 mart 1921-ci ildə Moskvada imzaladığı müqavilədən sonra Rusiyanın Cənubi Qafqazda əl-qolu daha da açılmış oldu. [19, s.42] 13 oktyabr 1921-ci ildə Türkiyə ilə Rusiya arasında imzalanan Qars müqaviləsi ilə Cənubi Qafqazdakı Azərbaycan, Ermənistan və Gürcüstan sosialist respublikalarının sərhədləri təsbit olundu. Bütün bunlar, əlbəttə İranın Qafqaz siyasətinə yenidən baxmasına və onun arzusuna heç də uyğun gəlməyən yeni reallığı qəbul etməsinə səbəb oldu.

21 fevral 1921-ci ildə ingilislərin dəstəyi ilə İran kazak diviziyasının komandiri podpolkovnik Rza xanın hökumət çevrilişi etdi. Seyid Ziyaəddin Əhməd Şah tərəfindən hökumət başçısı təyin edildi. [15, s.127] Lakin yeni Seyid Ziya hökumətinin təşkili də İran-Sovet yaxınlaşmasına mane ola bilmədi və 26 fevral 1921-ci ildə Moskvada Sovet-İran müqaviləsi imzalandı. Bu vaxtdan sonra ingilislərin mövqeyi daha da zəiflədi, may ayında Seyid Ziya kabineti buraxıldı, Əhməd şah hökumətin təşkilini Vüsuqüd-dövlənin qardaşı, Qəvvam-əs-səltənəyə həvalə etdi. Bu hökumətdə də Rza xan hərbi nazir və jandarm qüvvələrinin komandanı vəzifələrini, əyalət qubernatorlarına rəhbərliyi öz əlində saxladı. Ölkədəki bütün demokratik hərəkatlar, üsyanlar mərkəzi hökumətə itaətsizlik halları sonraki illərdə Rza xanın rəhbərliyi ilə qətiyyətlə aradan qaldırıldı.

26 fevral 1921-ci il tarixində Moskvada imzalanan Sovet-İran Dostluq Müqaviləsi Rusiya ilə İran sərhədlərini də müəyyən etdiyindən İranın Versal Konfransında tələb etdiyi ərazi iddialarına daha yer qalmadı. Hətta Müqavilənin 6-cı maddəsi bir sıra hallarda Sovet qoşunlarının İrana yeridilməsinə hüquqi əsas yaradırdı. [20, p.251] Beləliklə İran-Sovet əlaqələrinin yeni müstəviyə qalxması, İranın İngiltərəyə olan ümidlərinin də puc olması İranın Qafqazdakı ərazi iddialarını bir tərəfə qoymasına səbəb oldu.

**İstifadə edilmiş ədəbiyyat**

1. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I hissə, Bakı: “Mütərcim”, 2015, -648 s.

2. Rəsulzadə M.Ə. Qafqaz xatirələri, Bakı: “Xan”, 2021, -192 s.

3. Алиев С.М. Междоусобные войны и борьба за верховную власть в Иране после распада империи Надир шаха. Москва: 1980, -648 с.

4. Süleymanov M. Gülüstan müqaviləsi. 2-ci kitab, Bakı: “Elm və təhsil”, 2014, - 608 s.

5. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı: “Elm və təhsil”, 2015, -742 s.

6. Алиев С. История Ирана XX век. Москва: ИВ РАН - Крафт+, 2004, - 646 s.

7. Məhdəvi Ə.H. Tarix-e rəvabət-e xareciye İran, çap-e sevvom, moəsseseye enteşarat-e Əmir kəbir, Tehran: 1364, -476 s.

8. Шукуров К. Азербайджан в системе международных отношений 1648-1991, Документы и материалы. Баку: «Элм», 2020, -736 с.

9. Swietochowski T. Russian Azerbaijan /1905-1920/ The Shapingof National Identityin a Muslim community. Cambridge University Press. Cambridge, 1985, -272 p.

10. Mədətli E. Tarix və tarixşünaslıq məsələləri. Bakı: “Turxan”, 2022, - 468 s.

11. Mədətli E. “Heyət-e Fövqəladeye Qəfqaziyye” sənədlər toplusunda İran-Azərbaycan Cümhuriyyəti münasibətləri haqqında. //“Tarix və onun problemləri” jurnalı, № 3/4, Bakı: 2000.

12. Fərəx S.M. Xaterate seyasiye Fərəx. Ba ehtmame Pərviz Ləvaşani, Tehran: Enteşarate Əmir Kəbir, 1347, -211 s.

13. “Heyət-e Fövqəladeye Qəfqaziyye”. Əsnade müzakirat və qərardadhaye heyəti ezamiyyeye İran be Qəfqaz təhte sərpərəste Seyyid Ziaəddin Təbatəbai (1919-1920), Tehran: Dəftəre motaalate seyasi və beynəlmeləli, 1379 (2000), sənəd 2, -356 s.

14. Pio C.T. Rəğabəthayi rus və ingilis dər İran və Əfğanestan. Tərcume Abbas Azərin, Tehran: Şerkəte enteşarate elmi və fərhəngi, 1985, -250 s.

15. Əbdullahpur, Ə. Nəxostvəziran-e İran. Tehran: Çapxane-ye Aftab, -342 s. (farscası əlyazıda).

16. Amanat, A. Iran: A Modern History. Yale University Press, New Haven and London, 2017, -979 p.

17. Mədətli E. İranın diplomatik mənbələrində Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti haqqında. //“Diplomatiya aləmi” jurnalı, № 7, Bakı: 2004.

18. Иванов М.С. Очерк истории Ирана. Москва: “Госполитиздат”,1952, -468 с.

19. J.Lençovski (Lenczowski) Qərb və şourəvi dər İran-si sal rəğabət (fars dilində ədəbiyyata yaz) 1918-1948, tərcume Həvra Yavəri, çapxaneye məşəl azadi, 1351, s.40, - 512 s.) (Lençovski, s.41).

20. Farrokh, K. Iran at War 1500-1988.OSPREY publishing, Oxford, 2011, - 480 p.

Daxilolma tarixi: 01.06.2023

Çapa qəbul edilmişdir: 11.06.2023